

# Ataəmi MİRZƏYEV-60

Hörmətli Ataəmi müəllim!

Sizi - tanınmış alimi 60 illik yubileyiniz münasibətilə təbrik edirik.

Siz 25 may 1965-ci ildə Bakı şəhəri, Kürdəxanı qəsəbəsində anadan olmusunuz.

Siz ədəbiyyatşünaslıq sahəsində tanınmış füzulişünas alim, mətnşünas, Azərbaycan Milli Elmlər Akademiyası Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutunun "Orta əsrlər Azərbaycan ədəbiyyatı" şöbəsinin baş elmi işçisi, "Füzulişünaslıq" sektorunun müdiri, filologiya elmləri doktorusunuz.

1989-cu ildə S.M.Kirov adına Azərbaycan Dövlət Universitetinin filologiya fakültəsini filoloq - Azərbaycan dili və ədəbiyyatı müəllimi ixtisası üzrə bitirmisiniz. 2016-2018-ci illərdə Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyası nəzdində fəaliyyət göstərən Filologiya elmləri üzrə ekspert şurasının sədri vəzifəsində çalışmısınız.

1990-1993-cü illərdə Azərbaycan Milli Elmlər Akademiyasının Nizami adına Ədəbiyyat İnstitutunda aspiranturada təhsil almısınız.

Əmək fəaliyyətinizə 1 saylı internat məktəbdə Azərbaycan dili və ədəbiyyatı müəllimi kimi başlamısınız. 1994-cü ildə İnstitutun "Orta əsrlər Azərbaycan ədəbiyyatı" şöbəsində kiçik elmi işçi vəzifəsinə qəbul olmuş, 2017-ci ildən həmin şöbənin "Füzulişünaslıq" sektorunun müdiri vəzifəsində çalışmısınız.

1994-cü ildə "Klassik Azərbaycan-türk ədəbiyyatında "Yusif və Züleyxa" mövzusu (ilkin qaynaqlar və onların poetik təcəssümü)" adlı dissertasiya müdafiə edərək filologiya elmləri namizədi alimlik dərəcəsi almısınız. 2013-cü ildə "Azərbaycan bədii tərcümə tarixində Füzuli mərhələsi" mövzusunda dissertasiya müdafiə edərək filologiya üzrə elmlər doktoru alimlik dərəcəsi almısınız. Azərbaycan Respublikası Prezidenti Yanında Ali Attestasiya Komissiyasının qərarı ilə 2009-cu ildə isə dosent elmi adına layiq görülmüsünüz.

Xidmətlərinizə görə AHİK-in 25 illik Yubiley (2018) döş nişanı, Daşkənd-Əlişir Nəvai (2023) döş nişanı, AMEA Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutunun Elmi Şurasının qərarı ilə "İlin alimi" (2016) kimi mükafatlar qazanmısınız.

Elmi fəaliyyətiniz dövründə 287-yə yaxın elmi məqaləniz, 6 monoqrafiya və 10-dan artıq dərs vəsaitiniz çapdan çıxmışdır. "Cami, Nəvai və Füzuli yaradıcılığında 40 hədis" (1997); "Füzulinin "Hədiqətüs-süəda" əsəri" (2001); "Azərbaycan bədii tərcümə tarixi və Füzuli" (2009); "Azərbaycan epik şeirinin təşəkkül dövrü" (2016); "XIII-XVI əsrlər anadili Azərbaycan epik şeiri" (2017); "Füzulinin Tərcümeyi-hədisi-ərbəin əsəri" (2024) monoqrafiya və s. kitablarınız nəşr olunub.

Hörmətli Ataəmi müəllim!

Sizi bir daha 60 illik yubileyiniz münasibətilə təbrik edir, yeni yaradıcılıq uğurları arzulayırıq.

**Azərbaycan Yazıçılar Birliyi**